# Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident !**

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularımızı bildiririk !

2018-ci il aprelin 11-də keçirilmiş Prezident seckilərinin nəticələri ölkədə aparılan ictimai-siyasi, beynəlxalq, iqtisadi proseslərin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Azərbaycan xalqı son on beş il ərzində ölkədə görülmüş işlərə öz yüksək qiymətini verərək, Sizin növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti secilməyinizə səs verməklə öz iradəsini tam şəkildə ortaya qoydu.

Ölkədə uğurla həyata kecirdiyiniz daxili və xarici siyasəti bəyənən və daim dəstəkləyən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ölkə sahibkarlarının yekdil iradəsini ifadə edərək, Sizə doğma Azərbaycanımızın inkişafı və tərəqqisi naminə fədakar əməyinizdə müvəffəqiyyətlər arzulayır.

Böyük qürur və iftixar hissi ilə qeyd etmək istəyirik ki, ölkəmizin hərtərəfli inkişafı, makroiqtisadi sabitlik, yoxsulluğun azaldılması, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf xəttinin və siyasi kursun, Sizin tərəfinizdən inam və qətiyyətlə davam etdirilməsinin real məntiqi nəticəsidir.

Azərbaycan Prezidenti olduğunuz müddətdə, uğurla həyata keçirilən islahatlar nəticəsində ölkənin beynəlxalq nüfuzu artmış, müdafiə qabiliyyəti gücləndirilmiş, insanların maddı rifah halı qat-qat yaxşılaşdırılmış, sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülmüşdür.

Sizin rəhbərliyiniz altında müəyyənləşdirilmiş iqtisadi strategiya ölkədə iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsində, iş adamlarının hüquqi və qanuni mənafelərinin qorunmasında, habelə işgüzar fəaliyyətinin gücləndirilməsində mühüm rol oynamış, nəticədə ölkə iqtisadiyyatı üç dəfədən çox artmış, Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkəsi kimi tanınmışdır.

**Möhtərəm cənab Prezident !**

Fürsətdən istifadə edərək, bir daha Sizi Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, müstəqil, demokratik Azərbaycanın daha da möhkəmlənməsi, xalqımızın xoşbəxt gələcəyi naminə yorulmaz fəaliyyətinizdə uğurlar arzulayırıq!

*Dərin hörmət və ehtiramla, coxminlik Azərbaycan sahibkarları adından*

***M.Q.MUSAYEV,***
***Azərbaycan Respublikası***
***Sahibkarlar (İşəgötürənlər) Təşkilatları***
***Milli Konfederasiyasının Prezidenti***

Azərbaycan.- 2018.- 19 aprel.- S.8.